

# Bakı Enerji Həftəsinin dünyaya "yaşıl" mesajları

**Bugünlərdə dünyanın iqtisadi güc mərkəzlərinin, energetika sektorunda fəaliyyət göstərən iri şirkətlərin diqqəti yenidən bir sıra qlobal enerji layihələrinin reallaşdırıldığı Azərbaycana yönəlib. Məlum olduğu kimi, artıq 30 ildir ki, ölkəmizin paytaxtı enerji sahəsinin ən böyük tədbirlərindən birinə evsahibliyi edir. Ənənəvi olaraq hər il keçirilən Xəzər neft-qaz sərgisi enerji sektorunda qazanılan uğurların nümayişi, eləcə də bu sahədə əməkdaşlıq əlaqələrinin qurulması üçün əla fürsət yaradır. Məhz buna görədir ki, regionun ən mühüm enerji tədbirinə maraq ildən-ilə artır.**

Yeri gəlmişkən, ölkəmizdə beynəlxalq sərgilərin keçirilməsi təşəbbüsü müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyev tərəfindən irəli sürülüb. Belə ki, 1994-cü ildə, Ümummilli liderin təşəbbüsü ilə neft və milyonlar səltənəti Bakıda ilk dəfə olaraq Xəzər neft-qaz sərgisi keçirilib.

Bundan da məqsəd dünyanın enerji sektorunda fəaliyyət göstərən iri şirkətləri bir araya toplamaqla müstəqilliyini yenicə əldə etmiş Azərbaycanın karbohidrogen ehtiyatları ilə zənginliyi, eləcə də respublikamızın neft-qazçıxarma sahəsində çoxillik təcrübəsi barədə onlarda təsəvvürün formalaşdırılması ilə bağlı olub. Eyni zamanda, Xəzər neft-qaz sərgisi transmilli şirkətlərin ölkəmizdə yaradılmış əlverişli biznes mühiti ilə yaxından tanış olmaları üçün yaxşı imkanlar yaradıb. Beləliklə, illər keçdikcə bu mötəbər tədbir neft, qaz və energetika sahəsində aparıcı peşəkarların görüş yerinə çevrilib. Təsadüfi deyil ki, Prezident İlham Əliyev iyunun 4-də Bakı Enerji Həftəsi çərçivəsində 29-cu "Caspian Oil&Gas" və 12-ci "Caspian Power" sərgilərinin rəsmi açılış mərasimində bu barədə deyib: "Xəzər neft və qaz sərgisi otuz il bundan əvvəl 1994-cü ildə fəaliyyətə başlayaraq Azərbaycanın enerji sektoruna birbaşa xarici investisiyaların cəlb edilməsində mühüm rol oynamışdır. O vaxtdan bəri bu toplantı daha böyük tədbirə çevrilib və enerji siyasətinin bütün əsas seqmentlərini – neft, qaz, kəşfiyyat və hasilat, emal və nəqliyyatı və əlbəttə ki, "yaşıl enerji"ni əhatə edib".

Enerji sektoru ilə bağlı geniş müzakirələrin, fikir mübadilələrinin aparıldığı, yeni əməkdaşlıq əlaqələrinin təməlinin qoyulduğu bu toplantı artıq Bakı Enerji Həftəsi adı altında təqdim olunur. Yeri gəlmişkən, 2024-cü ildə keçirilən Bakı Enerji Həftəsi əhəmiyyətli bir dövrə təsadüf edir. Belə ki, bu il ölkəmizin neft tarixində yeni dövrün əsasını qoymuş "Əsrin müqaviləsi"nin imzalanmasından 30 il ötür. Xatırladaq ki, "Əsrin müqaviləsi" görkəmli siyasi və dövlət xadimi, ümummilli lider Heydər Əliyevin banisi olduğu Azərbaycanın energetika strategiyasının əsas tendensiyasını müəyyən edən və ölkəmizi dünyanın neft ixracatçılarından birinə çevirən möhkəm təməl, əsas iqtisadi baza hesab olunur. Təsadüfi deyil ki, bu mühüm tədbir Bakı Enerji Həftəsinin proqramında da geniş əksini tapıb.

Bütövlükdə isə, özündə üç mühüm tədbiri birləşdirən (29-cu Beynəlxalq Xəzər Neft və Qaz –"Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji – "Caspian Power" sərgiləri, eləcə də Bakı Enerji Forumu) Bakı Enerji Həftəsinin bütün dünyanın enerji sənayesi sahəsində mövcud olan liderlərini bir araya gətirməsi və bununla da beynəlxalq aləmin diqqətini Azərbaycana yönəldilməsi baxımından əhəmiyyəti olduqca böyükdür. Elə mühüm enerji toplantısında 37 ölkədən 300-dək şirkətin təmsil olunması, eləcə də əlaqədar dövlət strukturlarının, enerji sahəsində fəaliyyət göstərən şirkətlərin rəhbər şəxslərinin, xarici ölkələrin Azərbaycandakı diplomatik nümayəndəliklərinin başçılarının da tədbirə qatılması sərginin yüksək statusundan xəbər verir. Xüsusən də Azərbaycanın dövlət başçısı İlham Əliyevin hər il sərginin keçirildiyi məkana təşrif buyurması, burada səsləndirdiyi önəmli mesajlar regionun ən böyük enerji tədbirinin əhəmiyyətini qat-qat artırır.

Yeri gəlmişkən, iyunun 4-də Bakı Ekspo Mərkəzində keçirilən açılış mərasimində Prezident İlham Əliyev diqqəti Azərbaycanın neft-qaz sektorunun ötən 30 ildə keçdiyi çətin, həm də yüksək inkişaf yoluna yönəldərək ulu öndər Heydər Əliyevin 1993-cü ilin oktyabrında Prezident seçilməsi ilə ölkəmizin tarixində yeni səhifənin açıldığını, irimiqyaslı iqtisadi islahatların aparıldığını, yeni demokratik Konstitusiyanın qəbul edildiyini, həmçinin iqtisadiyyatımızın ən cəlbedici sahəsi olan enerji sektoruna xarici investisiyaların yönəldilməsi ilə bağlı işlərin aparıldığını bildirib. Ölkəmizin artıq etibarlı enerji tərəfdaşına çevrildiyini vurğulayan dövlətimizin başçısı qeyd edib ki, üç il müddətində "Çıraq" platformasından ilk neftin hasil olunması, Qara dəniz limanlarına gedən iki boru xəttinin istifadəyə verilməsi, "Şahdəniz" yatağının istismara daxil edilməsi, qaz ixracı üçün infrastrukturun yaradılması iqtisadiyyatımıza sanki bir nəfəs verib. Bununla da, Azərbaycan özünü etibarlı tərəfdaş kimi sübut edib və iqtisadiyyatımızın müxtəlif sahələrinə, xüsusən də, enerji sektoruna əlavə investisiyalar yatırılıb.

Hazırda 8 ölkənin Azərbaycandan "mavi yanacaq" aldığını vurğulayan Prezident İlham Əliyev ölkəmizin qaz təchizatında etibarlı tərəfdaş olduğunu bir çox ölkələrə sübut etdiyini diqqətə çatdırıb. Əgər belə olmasaydı, dövlət başçısının da qeyd etdiyi kimi, bu il mart ayında Bakıda keçirilmiş Cənub Qaz Dəhlizi Məşvərət Şurasının toplantısında Avropa Komissiyası Azərbaycanı ümum-Avropa qaz təchizatçısı adlandırmazdı. Yeri gəlmişkən, hazırda Azərbaycanın təbii qazı ilə qızınan ölkələrin 6-sı məhz "köhnə qitə"də yerləşir. Azərbaycanın qaz təchizatı coğrafiyasının genişlənəcəyini bəyan edən Prezident İlham Əliyev məxsusi olaraq qeyd edib ki, hazırda öz enerji təhlükəsizliyini təmin etmək üçün ölkəmizin təbii qazına ehtiyacı olan bir neçə əlavə dövlətlə danışıqların aktiv fazası gedir. Dövlət başçısı deyib: "Enerji təhlükəsizliyi milli təhlükəsizliyin ayrılmaz hissəsidir. İdxaldan asılı olan ölkələr, əlbəttə ki, ən etibarlı və uzunmüddətli tərəfdaşlar və müqavilələr axtarır. Onlar Azərbaycanın simasında məhz bunu əldə edirlər. Bizim sözümüz imzamız qədər dəyərlidir. Son 30 il ərzində imzalanmış bütün müqavilələr tam şəkildə icra olunub. Onların hamısı parlament tərəfindən ratifikasiya olunub və qanun şəklində imzalanıb. Orada bir söz belə dəyişilməyib. Bu etibar onilliklər ərzində qazanılıb".

Avropa İttifaqının enerji sahəsində etibarlı tərəfdaşına, strateji müttəfiqinə çevrilmiş Azərbaycan, həm də dünyanın prioritet elan etdiyi "yaşıl keçid"in də fəal iştirakçısı kimi tanınır. Bu sahədə zəngin potensiala malik olan ölkəmizdə hazırda mühüm "yaşıl" layihələr icra olunur. Artıq ötən ilin oktyabrında Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti 230 meqavat gücündə günəş elektrik stansiyasını istifadəyə verib. Azərbaycanın "yaşıl enerji" tərəfdaşı olan "Masdar" şirkəti yaxın bir neçə ildə Biləsuvar və Neftçalada daha 2 günəş, eləcə də Qaradağ-Abşeron külək elektrik stansiyalarını işə salacaq. Bundan əlavə, Səudiyyə Ərəbistanının "Acwa Power" şirkəti "Xızı–Abşeron" külək, Böyük Britaniyanın BP şirkəti isə "Şəfəq" günəş elektrik stansiyalarını 2025-ci ildə istifadəyə verəcəklər. Eyni zamanda, Qarabağ və Şərqi Zəngəzurda hidroelektrik stansiyalarının inşa edilməsi ilə bağlı görülən işlər ölkəmizdə "yaşıl enerji" istehsalının əhəmiyyətli dərəcədə artmasına səbəb olacaq.

Bakı neft və qaz sərgisində "Şahdəniz" yatağının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü sazişinin imzalanmasından 28 il sonra 1 qiqavat həcmində bərpaolunan enerji stansiyalarının təməlinin qoyulmasını Azərbaycanın "yaşıl enerji" sahəsində yeni eranın başlanğıcı kimi də dəyərləndirmək olar. Əslində bütün bunlar yalnız başlanğıcdır. Çünki ölkəmizin bu sahədə potensialı olduqca yüksəkdir. Digər tərəfdən, Azərbaycanın əlverişli investisiya və siyasi sabitlik məkanı kimi tanınması, eləcə də enerji ilə bağlı götürdüyü öhdəliklərə tam sadiqliyi onu deməyə əsas verir ki, ölkəmiz yaxın illərdə bu sahədə də əsas təchizatçılardan birinə çevriləcək.

Göründüyü kimi, qlobal iqlim dəyişkliklərinin mənfi təzahürləri, karbon emissiyalarının azaldılması ilə bağlı çağırışlara qoşulan Azərbaycan artıq qlobal aktor rolunda çıxış etməyə başlayıb. Elə Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişiklikləri üzrə Çərçivə Konvesiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Bakıda keçirilməsi ilə bağlı qərarın qəbul edilməsi də ölkəmizin beynəlxalq öhdəliyə sadiqliyindən irəli gəlir.

Prezident İlham Əliyev 29-cu Xəzər neft və qaz sərgisində çıxışı zamanı Azərbaycanın COP-a ev sahibliyi etmək kimi məsuliyyətli vəzifəni üzərinə götürərkən bunun həm üstünlüklərini, həm də müəyyən çətinliklərini tam şəkildə dərk etdiyini vurğulayıb. Prezident daha sonra deyib: "İqlim dəyişikliyi hər bir ölkə üçün çağırışdır. Biz proaktiv addımlar atdıq və hazırda tərəfdaşlarımızla birgə çalışırıq. Biz BƏƏ və növbəti COP-a evsahibliyi edəcək Braziliya ilə birlikdə "Troyka" təsis etmişik. Qoşulmama Hərəkatının keçmiş sədri qismində biz 120 ölkə ilə birlikdə bu təsisat və Avropa İttifaqı arasında körpülərin qurulmasına çalışırıq. Avropa İttifaqına 10 üzv dövlət ilə Azərbaycan arasında strateji tərəfdaşlıq haqqında bəyannamə imzalanıb. Biz hazırda inkişafda olan kiçik ada dövlətləri ilə fəal işləyirik. Onların dəstəklənməsi məqsədilə xüsusi fondun yaradılmasını planlaşdırırıq. Azərbaycan üçün iqlim dəyişikliyi problemdir, onlar üçün isə bu, ekzistensional təhlükədir. Beləliklə, biz maksimal dərəcədə məsuliyyət nümayiş etdirməyə və eyni zamanda, beynəlxalq ictimaiyyətin müxtəlif komponentləri arasında körpülər qurmağa çalışırıq. Hesab edirəm ki, COP29 çərçivəsində maliyyə məsələləri ilə yanaşı, əldə edə biləcəyimiz ən böyük nəticə qarşılıqlı ittihamlara son qoyulması olacaqdır".

*Mirbağır YAQUBZADƏ*
*XQ*